EKSPRES-İNFORMASİYA

Azərbaycan Milli Elmlər Akademiyası

İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

**Tofiq Kazımov**

# Azərbaycan dili və virtual məkan

EKSPRESS-İNFORMASİYA

İNFORMASİYA CƏMİYYƏTİ SERİYASI

www.ikt.az

Azərbaycan Milli Elmlər Akademiyası

İNFORMASİYA TEXNOLOGİYALARI
İNSTİTUTU

Tofiq Kazımov

# Azərbaycan dili və virtual məkan

EKSPRESS-İNFORMASİYA

İNFORMASİYA CƏMİYYƏTİ
SERİYASI

Bakı – 2009

**Kazımov T.H. Azərbaycan dili və virtual məkan. Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası.**
**Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2009, 42 səh.**

Azərbaycan dili böyük inkişaf yolu keçmiş qədim dillərdən biridir. Azərbaycan dilinin virtual məkanda istifadə olunması problemləri və inkişafı məsələləri təhlil olunmuş və araşdırılmışdır. Azərbaycan dilinin virtual məkanda mövcud problemləri və çətinlikləri tədqiq olunmuş, onların aradan qaldırılması məqsədilə tövsiyələr təklif olunmuşdur.

AMEA İnformasiya Texnologiyaları İnstitutunun Elmi Şurasının qərarı ilə çapa tövsiyyə olunmuşdur.

**Elmi redaktor: t.e.n. Zərifə Cəbrayılova**

ISBN: 978-9952-434-16-3

© "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2009

MÜNDƏRİCAT

Giriş....................................................................4

I. Dilin inkişafına təsir edən amillər.....................6

II. Dil, qloballaşma və İKT.................................9

III.İnformasiya cəmiyyətinin formalaşması və
inkişafı mərhələləri...........................................14

IV.Azərbaycan dili virtual məkanda...................20

V. İnternetdə Azərbaycan dilinin
problemləri.........................................................32

VI. Təkliflər və nəticə .........................................38

VII. İstifadə edilən ədəbiyyat..............................40

# Giriş

Azərbaycan dili qədim tarixi köklərə malikdir. Ümummilli lider Heydər Əliyevin 9 avqust 2001-ci il tarixdə imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanda deyilir: "Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün dilin hər hansı xalqda bir neçə minillik tarixi yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır".

Böyük uzaqgörənliklə imzalanan bu tarixi fərmana əsasən hər il avqust ayının 1-i Azərbaycan Əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir.

Azərbaycan xalqı bütün tarixi boyu mübarizə apararaq öz varlığını qoruduğu kimi, öz dilini də mühafizə edib saxlamışdır. Uzun müddət yad təsirlərə məruz

qalmasına baxmayaraq, ana dilimiz çox çətin və mürəkkəb bir inkişaf yolu keçərək öz orijinallığına, lüğət tərkibinə və məna çalarlarının zənginliyinə görə müasir dünyanın ən zəngin dilləri səviyyəsinə yüksələ bilmişdir. Azərbaycan dilində başqa dillərdən fərqli özünəməxsus ahəngdarlıq, incəlik, lətafət və şirinlik var. Onun məlahətli musiqi kimi səslənməsi, poetikliyi, səlistliyi insanı valeh edir. Son dövrlərdə, xüsusilə dövlətimiz müstəqillik qazandıqdan sonra, doğma dilimiz daha da inkişaf etmiş, lüğət tərkibi zənginləşmiş, qrammatik quruluşu xeyli cilalanmış, əsas üslubları təkmilləşmişdir. İndi Azərbaycan dili 50 milyondan artıq azərbaycanlının ana dili olmaqla elm və texnikanı, ədəbiyyatı və mətbuatı, iqtisadiyyat və mədəniyyəti, ümumiyyətlə bütün həyatımızı əhatə edən mütərəqqi bir dil səviyyəsindədir.

Ulu öndər Heydər Əliyev demişdir: "Hər bir Azərbaycan vətəndaşı öz ana dilini Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir".

Müasir dünyada gedən qloballaşma prosesləri Azərbaycana da öz təsirini göstərməkdədir. Milli

varlığımız sayılan ana dilimizin təmizliyini, orijinallığını qoruyub saxlamaq, onun təbii inkişafına mane olan mənfi amillərin təsirini minimuma endirmək, dünya dilləri sırasında onun nüfuzunu yüksəltmək hamımızın müqəddəs vətəndaşlıq borcudur.

## I. Dilin inkişafına təsir edən amillər

Qloballaşma şəraitində millətlərin milli varlığının aqibəti baxımından, dilin inkişaf perspektivlərinin prinsipial aspektləri və bu inkişafa təsir edən amilləri nəzərdən keçirək.

Milli varlıq millətin özünəməxsus maddi və mənəvi dəyərlərinin məcmusunu təşkil edir. Bunların özəyində isə tarixən formalaşmış və müəyyən dəyərlərə söykənən milli mədəniyyət, dil, adət və ənənələr, əxlaqi keyfiyyətlər durur.

Qloballaşma prosesi cəmiyyətin və insan fəaliyyətinin bütün sahələrinə nüfuz etməkdədir. Bu davamlı proses həm

müsbət, həm də mənfi təsir xüsusiyyətlərinə malik olmaqla müxtəlif inkişaf səviyyəli ölkələrdə fərqli gedir.

Geniş miqyaslı, hərtərəfli və ziddiyyətli xarakterinə görə qloballaşma dünya xalqlarında dil və mədəniyyət, adət və ənənələrin itirilmə təhlükəsini yaratmaya bilməz. Qloballaşma subyektlərinin qarşılıqlı münasibətlərinə müasir informasiya- kommunikasiya vasitələri, xüsusilə İnternet geniş müdaxilə edir. Qloballaşma həm də millətlərin yaxınlaşması və bir-birinə qaynayıb-qarışmasıdır. Bu zaman milli mədəniyyətlərin inkişafı və onların spesifikliyinin qorunması məsələləri xüsusi diqqət mərkəzində olmalıdır.

Qlobal kommunikasiya sistemləri "ikinci dünya" ölkələrində özünü dil ekspansiyasının ötürücüsü kimi də göstərir. Ona görə də qlobal tendensiyaların dilə neqativ təsirlərini minimuma endirmək məqsədilə konseptual xarakterli kompleks tədbirlərə ehtiyac vardır.

Alimlərin proqnozuna görə, qlobal kommunikasiya sistemlərinin köməyilə milli dillərin "çirklənməsi" və bir-birinə nüfuz etməsi nəticəsində mədəniyyətə kobud

davranış, ünsiyyət formaları, cahillik, pis vərdiş və yad dəb elementləri aşılanır. Hər bir canlı dilin arxasında onun ifadə zənginliyini əks etdirən bir mədəniyyət durur.

Dünyada nə qədər dil varsa, o qədər də düşünmə tərzi mövcuddur. Hər hansı bir dilin məhv olması ilə dünya fərqli düşünmək, dərk etmək, yaşayıb fəaliyyət göstərmək və beləliklə də, hökmran mədəniyyətdən fərqlənmək imkanından məhrum olur [1].

Geniş yayılmış dillərin (xüsusilə ingilis dilinin) başqa xalqların dillərinə ekspansiyası etnik şüura müdaxilə kimi dəyərləndirilsə də, ilk baxışda humanist məqsədlərə ən müasir texnologiyaların yayılması, dünya mədəniyyətinə inteqrasiya və s. xidmət edir. İctimai-fəlsəfi baxımdan onu anlamaq kifayətdir ki, dilə olan istənilən müdaxilə mental düşüncəyə olan müdaxilədir və son nəticədə bu mədəni, ideoloji, siyasi və s. asılılığa gətirib çıxara bilər. Bu müdaxiləyə necə davam gətirmək, onun ən ağır və təhlükəli nəticələrindən necə yayınmaq olar? Belə bir vəziyyətin ancaq bizim ölkədə yarandığını düşünmək düzgün olmazdı. Düşünürük ki, bir çox sahələrdə, xüsusilə

də İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) sosial aspektləri istiqamətində fundamental, geniş miqyaslı elmi tədqiqatların, təhlillərin və araşdırmaların aparılmasına ehtiyac vardır.

Müasir dövrdə qarşımızda həm ümumelmi, həm ümumsosial və həm də fəlsəfi əhəmiyyətə malik nəhəng bir problem durur. Belə ki, son onillikdə qlobal kommunikasiya sistemlərinin təsiri altında bir çox Azərbaycan sözləri kütləvi informasiya vasitələrində, danışıq dilində, dövlət sənədlərində və s. yabancı sözlərlə əvəz olunmuşdur [4].

## II. Dil, qloballaşma və İKT

Dünyada elm, təhsil və mədəniyyət məsələləri üzrə müvafiq qərarların qəbul olunub həyata keçirilməsində Birləşmiş Millətlər Təşkilatının böyük xidmətləri vardır.

YUNESKO-nun Nizamnaməsində "İnsan ləyaqətini qoruyub saxlamaq məqsədilə bütün insanlar arasında ədalət, sülh, əmin-amanlıq prinsipləri əsasında mədəniyyət

və təhsilin geniş yayılması zəruridir və bu proses qarşılıqlı əməkdaşlıq ruhunda həyata keçirilməlidir" fikri xüsusi qeyd olunur.

Sözügedən təşkilatın baş konfransının qəbul etdiyi "Çoxdilliliyin inkişafı, istifadə olunması və kiberfəzaya ümumi çıxış haqqında tövsiyyə" adlı sənəddə deyilir:

«**Baş konfrans**,

İKT-nin inkişafı, ideyaların sözlər və təsvirlər vasitəsilə sərbəst yayılması yollarının təkmilləşdirilməsi və s. üçün imkanların yaranması, bunun həm də qlobal informasiya cəmiyyətində hər kəsin iştirakını təmin etmək baxımından bir çağırış olmasına

**əmin olaraq**,

qlobal informasiya şəbəkəsində dil müxtəlifliyi və kiberfəzadakı informasiyaya ümumi çıxış məsələlərinin, hazırda gedən qızğın mübahisələrin mərkəzində durduğunu və bunun, cəmiyyətin biliklər əsasında inkişafında həlledici əhəmiyyət kəsb edə bilməsini

**qeyd edərək**,

bu tövsiyyəni qəbul edir »

Tövsiyyədə elm, mədəniyyət və dilimizin kiberfəzada (elektron məkan, İnternet) İKT-nin köməyilə özünə layiqli yer tutması, inkişafı baxımından çox vacib məqamlar var. Əhəmiyyətini nəzərə alaraq, diqqətinizə çatdırırıq (Sıralama sənəddə olduğu kimi verilir).

1. Dövlət, özəl sektor, vətəndaş cəmiyyətləri yerli, milli, regional və beynəlxalq səviyyələrdə fəaliyyət göstərərək:

- zəruri resursların təqdim olunmasını təmin etməli;
- elm, təhsil və mədəniyyətə aid rəqəmsal informasiyanın yaradılmasına və emalına yardım etməklə, insanların İnternet vasitəsilə qarşılıqlı interaktiv ünsiyyətini fəallaşdırmalı;
- hər bir millətin bütün dillərdə (yerli əhalinin dili də daxil olmaqla) kiberfəzaya çıxışına yardım etməli;

3. Təşkilatlara üzv ölkələr dilin, xüsusilə ana dilinin kiberfəzada tədrisinə yardım etməklə, son dərəcə vacib bir məsələ olan dilin kiberfəzadan

sıxışdırılıb çıxarılmaması üçün fəal milli siyasət işləyib hazırlamalıdır.

4. Üzv ölkələr, İKT istehsalçıları, çoxdilli on-line lüğətlərlə, terminoloji məlumatlarla zəngin olan müxtəlif əməliyyat sistemlərinin, İnternetdə axtarış sistemlərinin və baxış proqramlarının yaradılması və onların yerlərdə adaptasiya olunması üzrə müştərək, parsipativ tədqiqatları və işləri təşviq etməlidirlər. Onlar həmçinin, avtomatlaşdırılmış tərcümə xidmətlərinin, çoxdilli informasiya axtarışını, xülasələşdirməni, referatlaşdırmanı, nitqin tanınmasını həyata keçirən intellektual linqvistik sistemlərin ümumi istifadə olunmasında göstərilən beynəlxalq, müştərək səylərə dəstək göstərməlidirlər.

5. YUNESKO digər beynəlxalq təşkilatlarla birgə çoxdillilik, çoxdilli resurslar və tətbiqi işlər (dilə tətbiq olunan yeni kompüter texnologiyaları nəzərə alınmaqla) sahəsində olan bu günkü siyasəti, qaydaları, texniki tövsiyyələri və qabaqcıl təcrübəni müşahidə etmək üçün müştərək on-line rəsədxana yaratmalıdır.

9. Üzv ölkələr məktəblərə, akademiyalara, muzeylərə, arxivlərə, kütləvi kitabxanalara və s. bu kimi dövlət təşkilatlarına İnternetdən istifadə üçün güzəştli tariflərin təqdim olunması məsələsini nəzərdən keçirməli və İnternet xidmətləri təklif edən provayderləri həvəsləndirməlidir.

14. Üzv ölkələr və beynəlxalq təşkilatlar domen adlarının (çoxdilli domen adları da daxil olmaqla) idarə olunması sahəsində uyğun şərikli münasibətlərin yaradılmasına yardım göstərməlidir.

Qloballaşmanın aparıcı qüvvələrindən olan İKT informasiya cəmiyyətinin qurulmasında və formalaşmasında ən mühüm vasitələrdən biridir. İKT-nin yaratdığı imkanlar aşağıdakı işlərin yerinə yetirilməsinə zəmin yaradır:

- müxtəlif informasiyalara tez bir zamanda müraciət etmək imkanı yaratmaqla vətəndaşların hüquqlarını genişləndirir;

- siyasi qərarların qəbul olunması prosesində əhalinin iştirakını və hökumətin fəaliyyətini izləmək imkanını artırır;
- informasiyanın istifadə olunması imkanı ilə yanaşı, onu fəal istehsal etmək imkanı da yaradır;
- şəxsi həyatın mühafizə vasitələrini, şəxsi göndərişlərin və kommunikasiyaların anonimliyini və təhlükəsizliyini təmin edir .

## III. İnformasiya cəmiyyətinin formalaşması və inkişafı mərhələləri

İnformasiya cəmiyyəti beş əsas mərhələnin, yəni kommunikasiyalaşdırma, kompyuterləşmə, şəbəkələşdirmə və nəhayət, yaranmış virtual məkanda yeni siyasi-iqtisadi, hüquqi və digər növ münasibətlərin formalaşması nəticəsində meydana gəlir. İnformasiya cəmiyyətinin ənənəvi sənayenin və xidmət sahələrinin hökm sürdüyü cəmiyyətdən fərqi ondadır ki, burada

informasiya, biliklər, informasiya xidmətləri və onların istehsalı ilə əlaqədar olan bütün sahələr (telekommunikasiya, kompyuter, televiziya və s.) böyük sürətlə inkişaf edərək, yeni iş yerləri mənbəyinə çevrilməklə iqtisadi inkişafda əhəmiyyətli yer tutur.

İnformasiya cəmiyyətində vətəndaşlar müxtəlif tipli informasiyaya müraciət etməkdə sərbəstdirlər və onlar İKT-nin nailiyyətlərindən hərtərəfli istifadə etmək imkanına malikdirlər. Buna əlyetərli qlobal informasiya şəbəkələrini, ucuz telefon əlaqələrini, güclü avtomatlaşdırılmış idarəetmə və planlaşdırma sistemlərini və nəhayət müasir məişət texnikasını aid etmək olar.

Hazırda dünyanın bir çox ölkələrində mühüm inkişaf faktoru olan informasiya cəmiyyətinin formalaşması və inkişafı prosesi gedir. Bu cür keçidin əsasını texnoloji inqilab təşkil edir. Bu zaman informasiya resurslarının inteqrasiyası, müxtəlif qurğuların konvergensiyası, cəmiyyətdə sistemli dəyişikliklər yaradan mobil rabitənin inkişafı baş verir.

Qlobal informasiya şəbəkələrinin, ilk növbədə, beynəlxalq informasiya mübadiləsində geniş, böyük imkanlara malik İnternetin yaranmasında və sürətli inkişafında yeni texnologiyaların rolu əvəzsizdir.

İnformasiya cəmiyyətinin çox mühüm xarakterik cəhətləri – elektron informasiya resurslarının (mövcud informasiya resurslarının elektron formaya çevrilməsi və yeni resursların yaradılması) sayının sürətlə artması, informasiyanın sərbəst yayılması və informasiyaya sərbəst müraciət olunması və s.

Azərbaycanda informasiya texnologiyalarının geniş tətbiq olunması məqsədilə həyata keçirilən layihələr, bütün regionlarda kommunikasiyalaşdırma və kompyuterləşdirmə proqramları, dünyanın aparıcı şirkətlərinin (Cisko, Microsoft, İntel və s.) ölkənin İKT sahəsinə investisiya qoymaq təşəbbüsləri, ölkəmizdə informasiya cəmiyyəti qurulması proseslərinin müvəffəqiyyətlə davam etdirilməsi üçün etibarlı zəmin yaradır.

Ümummilli lider Heydər Əliyev tərəfindən 17 fevral 2003-cü il tarixdə imzalanmış və qarşıdakı onillik dövr üçün dövlət proqramı statusu almış "Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə Milli Strategiya (2003-2012-ci illər)" yaxın 10 il ərzində görüləcək işlərin ümumi xəttini müəyyənləşdirmişdir. Ulu öndərin daxili və xarici siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 10 avqust 2004-cü il tarixli fərmanla "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (E-Azərbaycan)" qəbul olunmuşdur. Milli Strategiyanın əsas məqsədi İKT- dən geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etməkdir. Bu məqsədə gedən yolda qarşıda duran vəzifələrdən biri də ölkənin ümumdünya elektron informasiya məkanına inteqrasiyası, milli proqram vasitələrinin yaradılması, İKT məhsullarının istehsalının inkişaf etdirilməsidir. Dövlət Proqramının məqsədi rabitə və informasiya

texnologiyalarının inkişafını təmin etmək və bu yolla ölkənin hərtərəfli tərəqqisi üçün xidmət göstərmək, eyni zamanda, İKT-nin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsini təmin etmək, müəyyən edilmiş məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun olaraq layihələri planlaşdırmaq və icra etməkdir. Bununla əlaqədar aşağıdakı məsələlərin həlli xüsusi əhəmiyyət kəsb edir:

- Rabitə və informasiya texnologiyaları sahəsinin gələcək inkişafı üçün islahatların aparılması və effektiv mexanizmin formalaşdırılması;
- qlobal informasiya fəzasına inteqrasiyanın genişləndirilməsi;
- cəmiyyətin, iqtisadiyyatın, dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin ümumi istifadəli rabitə və informasiya texnologiyaları şəbəkələrinə qoşulma imkanlarının və onların artan tələbatının təmin edilməsi;
- ölkənin milli informasiya təhlükəsizliyi sisteminin yaradılması, informasiya fəzasının təhlükəsizliyinin və

vətəndaşların informasiya hüquqlarının müdafiəsinin təmin edilməsi;

- rabitə və informasiya texnologiyalarının inkişafını təmin etmək üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- rabitə və informasiya texnologiyaları sahəsində standartlaşmanın, sertifikatlaşdırmanın, radiotezlik və nömrələnmə ehtiyatlarının tənzimlənməsinin beynəlxalq standartlara uyğun təşkil edilməsi;
- dövlət, ictimai və sahə informasiya resurslarının formalaşdırılması, informasiya sistemlərinin və şəbəkələrinin yaradılması;

Bu məsələlərin həlli rabitə və informasiya texnologiyaları sahəsində dövlət-tənzimlənməsini təkmilləşdirəcək, bu sahədə normativ-hüquqi bazanı formalaşdıracaq, xidmətlər bazarı genişlənəcək və liberallaşacaq, azad və ədalətli rəqabət əsasında xidmətlər bazarında qiymətlər tənzimlənəcək, xidmətlərin keyfiyyəti artaraq, müasir xidmət növləri yaranacaq. Respublika ərazisində əhali, hüquqi və fiziki şəxslər, dövlət idarəetmə

orqanları, səfirliklər, xarici nümayəndəliklər, yerli və xarici sahibkarlar, ümumiyyətlə, cəmiyyətin iqtisadi və sosial həyatının bütün sahələri müasir rabitə və informasiya texnologiyaları xidmətlərilə təmin olunacaq. Azərbaycan iqtisadiyyatında rabitə və informasiya texnologiyaları sahəsi inkişaf edərək informasiya cəmiyyətinin formalaşmasına zəmin yaradacaq. Bu isə cəmiyyətin sosial-iqtisadi həyatının bütün sahələrinin inkişafını təmin edəcək.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İKT-ni ölkədə neftdən sonra ikinci, yeni bir prioritet sahə adlandırmışdır.

## IV. Azərbaycan dili virtual məkanda

Azərbaycan dili əlifbasının elektron informasiya məkanında geniş istifadə olunması və təşəkkül tapması məqsədilə ölkəmizdə bir sıra işlər görülmüşdür.

Milli Strategiya çərçivəsində görülən işlər (www.unicode.az):

- Azərbaycan əlifbasının yeni Unicode standartlarının Windows XP versiyalarında istifadəsini təmin edən proqram təminatı hazırlanmışdır;
- istifadəçilərin istəklərinə uyğun yeni klaviatura düzümünün yaradılmasını təmin edən proqram hazırlanmışdır;
- rus əlifbasının düzümünə uyğun köhnə Azərbaycan şriftlərində yığılmış mətnləri yeni Unicode standartlarına və əksinə çevirə bilən proqram təminatı hazırlanmışdır;
- tərtibat dizaynda istifadə edilə biləcək və Unicode standartlarına uyğun 4 dildə (ingilis, Azərbaycan, rus və türk) dəstəklənən yeni Azərbaycan şriftləri hazırlanmışdır. Bundan əlavə, "Poliqlot" (www.polyglot.az) elektron lüğətlər sistemi yaradılıb istifadəyə verilmişdir. Sistemə Azərbaycan-ingilis, rus-Azərbaycan, ingilis-rus lüğətləri daxil edilmişdir. Sistemdə olan "Məktəbli lüğətləri" vasitəsilə isə ingilis və

fransız dillərindən Azərbaycan dilinə məktəb proqramı çərçivəsində tərcümələr etmək olar. Ümumilikdə "Poliqlot" elektron lüğətlər sisteminə 200 mindən çox söz və ifadə daxil edilmişdir.

Azərbaycanın orta ümumtəhsil məktəblərinin elektron kataloqu sayıla biləcək "Mənim məktəbim" (www.mekteb.az) İnternet səhifəsi özündə aşağıdakı məlumatları cəmləşdirir:

- məktəb haqqında (onlayn xəbərlər, statistika, fotoalbom, ən yaxşı şagirdlər və s.);
- məktəbliyə kömək (məktəbdənkənar tədris materialları, olimpiadaların, müsabiqələrin, sərgi və idman yarışlarının anonsları və s.);
- ali məktəblər haqqında

Bu resursun yaradılmasında məqsəd ölkədə ümumtəhsil məktəbləri haqqında məlumatları informasiya texnologiyaları vasitəsilə yayılmasını təmin etməkdədir. Gələcəkdə "Mənim məktəbim" İnternet səhifəsinin

bazasında Azərbaycanın bütün orta ümumtəhsil məktəblərinin veb-səhifələrinin yaradılması planlaşdırılır.

"İnKoTex" ictimai birliyinin yaradıcı qrupunun işləyib hazırladığı və istifadəçilərə təqdim etdiyi "DİLMANC" maşın tərcüməsi sisteminin köməyilə kompyuterdə olan mətnləri Azərbaycan dilindən ingilis dilinə və əksinə tərcümə etmək olar (www.inkotex.az). Müəyyən qüsurlara baxmayaraq bu, Azərbaycanda hələ ki, yeganə maşın tərcümə sistemidir. Lakin bununla kifayətlənmək olmaz. Həmin istiqamətdə işlər davam etdirilməli, yeni tələblərə cavab verən müasir maşın tərcüməsi sistemləri yaradılmalıdır. Azərbaycan dili üçün yaradılacaq yeni maşın tərcümə sistemlərində müxtəlif ixtisas qruplarına aid terminlər (xüsusilə hesablama texnikası və informasiya texnologiyaları terminləri) lüğətlərindən istifadə olunmalıdır.

Mədəniyyətimizin, dilimizin, tarixi dəyərlərimizin qorunub saxlanılmasında, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq ideyasını,

azərbaycançılıq fəlsəfəsini təbliğ etməkdə Heydər Əliyev Fondunun, xüsusilə onun prezidenti YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətləri əvəzsizdir.

2005-ci il iyul ayının 22-də Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Azərbaycan" İnternet portalının təqdimat mərasimi keçirilmişdir. Bu mərasimdə fondun prezidenti Mehriban Əliyevanın çıxışından bəzi məqamları nəzərdən keçirək:

"Çox müsbət haldır ki, dünyada gedən qloballaşmanın aparıcı qüvvələrindən biri olan İKT Azərbaycanda öz yerini tutur. İnternet ölkəmizdə dinamik inkişaf edir. Yeni texnologiyalarla məşğul olan təşkilatların sayı günbəgün artır. Bizdə indi kifayət qədər internet resursu var. Amma məsələni daha dərindən öyrənəndə bir sıra ciddi nöqsanlar üzə çıxır. Şəbəkənin abbreviaturası ilə bağlı problemlər, yüksək səviyyəli axtarış sistemlərinin olmaması, saytların yeni informasiyalarla təmin edilməməsi, konkret bir problemə həsr olunmuş saytlarla yanaşı çox formal, müasir tələblərə cavab verməyən saytlar

da vardır. Ölkəmizin beynəlxalq imicinə zərbə vuran, böhtan, yalan yayan, yanlış mövqeli, o cümlədən xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə Ermənistanın mövqeyini əks etdirən çoxlu sayda müxtəlif dilli saytlar da mövcuddur. Məhz bütün bunlara görə biz "Azərbaycan" portalının yaradılmasını zəruri hesab etdik. Bunu vaxtında atılmış bir addım kimi qiymətləndiririk. Əminəm ki, ölkəmizin ən qədim tarixindən tutmuş bugünkü reallığına qədər dövrü özündə əks etdirən bu portal çox problemlərin həllində mühüm rol oynayacaqdır."

Doğrudan da, həcminə, zənginliyinə və əhatəliliyinə, habelə istifadə olunmuş İnternet texnologiyalarına görə bu portalın respublikada analoqu yoxdur. Müasir informasiya texnologiyalarının imkanlarını bir daha nümayiş etdirən "Azərbaycan" portalı ölkəmizin beynəlxalq aləmdə təbliği işinə, dünyada Azərbaycan haqqında tam, həqiqi və dolğun təsəvvür yaradılmasına sanballı kömək göstərəcəkdir [2].

Portal 3 dildə - Azərbaycan, ingilis və rus dillərində tərtib olunmuşdur (www.azerbaijan.az).

2005-ci il dekabrın 9-da Heydər Əliyev Fondu ilə BMT-nin İnkişaf Proqramı arasında "Kor və görmə qabiliyyəti zəif olan şəxslərin informasiya və kommunikasiya texnologiyalarından istifadəsinin təmin edilməsi barədə" layihə sənədi imzalanmışdır.

Sözügedən layihə BMT-nin "Minillik Bəyannaməsi"ndə dövlət və hökumət başçıları tərəfindən yeni texnologiyaların, xüsusilə hər kəsin İKT ilə təmin olunması barədə götürülmüş öhdəliyə və Azərbaycan hökumətinin İKT üzrə Milli Strategiyasına uyğun hazırlanmışdır.

Azərbaycanda 320 min əlil insan yaşayır. Onlardan 40 mini kor və görmə qabiliyyəti zəif olan şəxslərdir. Layihənin həyata keçirilməsi bu cür insanların həyata qoşulmasına, onların informasiya və kommunikasiya texnologiyaları vasitələri ilə bilik və məlumat əldə etmək imkanının genişləndirilməsinə, onların məşğulluğunun

artırılmasına, ümumən bu insanların yaşayış tərzini yaxşılaşdırmağa xidmət edəcəkdir.

Bu layihə üç mərhələdə həyata keçiriləcəkdir. Birinci mərhələ kor və görmə qabiliyyəti zəif olan insanların İKT-yə ehtiyaclarını müəyyən etmək, onlar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə ayrıca proqram layihəsi hazırlamaqdan ibarətdir. Bu məqsədlə sorğular, müzakirələr keçirilməli, təcrübə mübadiləsi aparılmalı, alınacaq avadanlığın növləri müəyyən edilməlidir.

İkinci mərhələdə kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün internat məktəbində model İKT sinfinin yaradılması istiqamətində işlər aparılacaqdır. Burada kompyuter avadanlığının alınıb quraşdırılması, proqram təminatının lokallaşdırılması, İntrnetə çıxışın təmin edilməsi və xüsusi tədris-təlim proqramlarının hazırlanması başlıca vəzifələrdən biri olacaqdır.

Audio kitabxanaların hazırlanması, təlim mərkəzlərinin yaradılması, kitabxana fondunun audioformata çevrilməsi üçün səsyazma studiyasının qurulması, bu studiyanın yardımı ilə mövcud

kitabxanalarda Brayl şriftli və audiokitabların bərpası, İnternetə çıxış, informasiya texnologiya əsaslı təlim kursları, İntrnetdə informasiyanın tapılması, əldə edilməsi kimi xidmətləri təmin edən kompyuter mərkəzinin yaradılması, təlim kurslarında dərs deyəcək müəllimlərin, təlimçilərin hazırlığı üçüncü mərhələdə həyata keçiriləcəkdir.

Kor və görmə qabiliyyəti zəif olan insanların yeni texnologiyaları mənimsəməsi bir sıra çətinliklərlə bağlıdır. Bu səbəbdən ilk növbədə xüsusi proqram təminatının hazırlanmasına ehtiyac vardır. Kor və görmə qabiliyyəti zəif olan istifadəçilər baş verənlər haqqında səsləndirilən məlumatlardan xəbər tutur. Ona görə də xüsusi proqram təminatında bütün yerinə yetirilən əməliyyatlar səsləndirmə yolu ilə aparılır. Yəni bütün mətnlər oxuyucu proqram vasitəsilə səsləndirilir.

AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda Azərbaycan dilli elektron mətnlərin səsləndirilməsi problemləri üzrə elmi-tədqiqat işləri aparılır. Alınan ilkin nəticələr elektron mətnlərin oxunmasını reallaşdıran

proqram təminatının yaxın vaxtda yaradılacağına ümid verir.

İKT-nin tətbiqinin səmərəliliyinin yüksəldilməsi hər bir ölkənin milli xüsusiyyətlərini nəzərə alan əlavə texniki, proqram vasitələrinin hazırlanıb istifadəyə verilməsi ilə sıx bağlıdır. Klaviatura informasiyanın daxil edilməsinin əsas vasitəsi olmaqla kompyuter texnikasının insan fəaliyyətinin müxtəlif sahələrinə nüfuz olunmasında xüsusi rol oynayır.

Hazırda Azərbaycan milli klaviaturasının olmaması üzündən kompyuter klaviaturasında informasiya yığımı iki variantda aparılır:

- Azərbaycan hərflərinin rus klaviaturasına əsaslanan çox yayılmış düzülüş variantı;
- Azərbaycan hərflərinin ingilis klaviaturasına əsaslanan nisbətən az yayılmış düzülüş variantı.

Uzun illər Azərbaycan hərflərinin vahid klaviatura düzülüşü variantının olmaması, istifadəçiləri bu variantlardan istifadə etməyə məcbur edir və onlarda bu variantlardan hər hansı birinə kifayət qədər dayanıqlı vərdişlərin yaranmasına gətirib çıxarmışdı. Bu

düzülüşlərdə simvolların (hərflərin) yerləşmə yeri əhəmiyyətli surətdə bir-birindən fərqlənir. 2000 – ci ildə yaradılan Windows 2000 əməliyyatlar sistemi, nəhayət Unicode standartlarını tam şəkildə dəstəklədi. Windows əməliyyatlar sisteminin tapşırıqlar panelinə "AZ" yazısını çıxarmağa imkan verməklə, bu klaviaturada Azərbaycan düzülüşü ilə bağlı problemi qismən həll etmiş oldu. Amma, buna baxmayaraq, bir çox kompyuter sistemləri və proqram vasitələri, Azərbaycan mətnlərinin daxil edilməsi, redaktə olunması rejimləri üçün zəruri olan müasir funksionallığı dəstəkləmir.

Kompyuterdə Azərbaycan şriftlərinin sistem klaviatura vasitələrinin olmaması vəziyyəti daha da mürəkkəbləşdirir. Belə hallarda çıxış yolu kimi latın şriftlərindən istifadə edilməsi məsləhət görülür və çatışmayan Azərbaycan hərflərinin (ə,ş,ğ,ö,ü,ç,ı) latın hərflərinin ikili, üçlü birləşmələri ilə əvəz etmək təklif olunur. Əlbəttə bu, bir çox narahatçılıqlar yaradır. Digər tərəfdən Azərbaycan hərflərinin klaviatura düzülüşünün (rus və ingilis) şəklinin olmaması da istifadəçi üçün adi bir

mətni yığmaqda ciddi çətinliklər yaradır. Bütün bu problemlər kompyuterin sistem interfeysinə "Simurq" Azərbaycan virtual klaviaturasının daxil edilməsi ilə həll oluna bilər. Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunda yaradılmış "Simurq" virtual Azərbaycan klaviaturası "yad kompyuterdə" Azərbaycan hərflərinin sistem klaviatura vasitələrinin olmadığı bir halda Azərbaycan şriftlərini daxil etməyə imkan verir [3]. Məsələn, Türkiyədə məzuniyyətdə olan bir şəxsdə "Simurq" proqramı olarsa o, İnternet kafedə rahat bir şəkildə Azərbaycan mətnini kompyuterdə yığa bilər.

Aydındır ki, bu halda Azərbaycan hərflərini yığmaq üçün heç bir ikili latın hərf birləşmələrindən istifadə olunmayacaq, yəni bir klaviş basıldıqda ekrana bir hərf çıxır. Klaviaturanın ekranda görünən interaktiv şəkli heç də maus vasitəsilə onun üzərində düyməni basmaqla hərfləri yığmaq məqsədi daşımır, sadəcə düzülüşü yada salmaq üçündür. Amma, bu o demək deyildir ki, maus vasitəsilə hərfləri yığmaq olmaz. Hər iki düzülüşdə maus yığımını

həyata keçirmək olar. Böyük hərfləri yığmaq üçün fiziki klaviaturada Shift klavişini basıb saxlayaraq maus vasitəsilə klaviaturanın ekrandakı şəklində istənilən hərfin üzərində düyməni basmaq kifayətdir [3].

## V. İnternetdə Azərbaycan dilinin problemləri

İnformasiya cəmiyyəti qurulmasında dünyəvi hörümçək torunun rolu əvəzsizdir. Dünyəvi hörümçək toru (ing. World Wide Web) - verilənlərin ötürülmə protokolu HTTP və İnternetin fiziki infrastrukturu əsasında yaradılan qlobal informasiya fəzasıdır. WWW-nin qurucusu Ser Timoti Berners-Li demişdi: - Beynəlxalq şəbəkə, bir-birilə ünsiyyətdə olan insanların şəbəkəsidir, biz onu təşkil etmişik, ancaq onu daha da yaxşı etməli deyilik, hər kəs bu sahədə öz töhfəsini verməlidir.

Azərbaycanın dünya informasiya məkanına fəal inteqrasiya olunması üçün İnternetin imkanlarından geniş istifadə etmək lazımdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Telekommunikasiya haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 9 avqust tarixli fərmanı ölkəmizdə İnternetin inkişafına bir təkan oldu.

Son zamanlar Azərbaycan müxtəlif regionlarda İnternetin inkişafına güclü zəmin yaradılmışdır. Beynəlxalq Telekommunikasiya İttifaqı (BMT) İnternet istifadəçilərinin sayına görə dünya ölkələrinin reytinqini açıqlayıbdır. Reytinq cədvəli hər 100 nəfərə düşən İnternet istifadəçilərinin sayını göstərməklə 198 ölkəni əhatə edib. Bu cədvəldə birinci yeri əhalisinin hər 100 nəfərinə 79,3 nəfər İnternet istifadəçisi düşən Yeni Zelandiya tutub. Azərbaycan siyahıda 120-ci yerdədir. BMT-nin araşdırılmalarına görə, Azərbaycanda hər 100 nəfərə 5,16 nəfər İnternet istifadəçisi düşür. Ermənistan bizdən geridə, 124-cü yerdədir (100 nəfərə-5,03 nəfər). Axırıncı yerdə Tacikistandır. Burada hər 100 nəfərdən yalnız 0,007-si İnternetdən istifadə edir. BMT-nin məlumatına görə, bu gün dünyada 1 milyarddan artıq İnternet

istifadəçisi var ki, bu da Yer kürəsi əhalisinin 16%-ni təşkil edir [4].

Hər bir ölkədə İnternetdən istifadə edənlərin sayının çox olması şübhəsiz ki, fərəhləndirici bir haldır. Amma İnternetdən səmərəli, məqsədyönlü istifadə etmək bacarığı heç də az əhəmiyyət kəsb etmir. Bu mənada, mədəniyyətimizin, dilimizin, tariximizin, ümumiyyətlə Azərbaycan həqiqətlərinin bütün dünya ictimaiyyətinə dolğun, düzgün çatdırılmasında Vikipediyanın imkanlarından geniş şəkildə istifadə olunmalıdır. Vikipediya (ing., Wikipedia) – İnternet vasitəsilə azad yayımlanan ensiklopediyadır. O, "Wikimedia Foundation" qeyri-hökumət təşkilatı tərəfindən yaradılmış və 15 yanvar 2001-ci ildə fəaliyyətə başlamışdır. Vikipediya dünyanın ən böyük ensiklopediyasıdır. O, müraciətlərin sayına görə sorğu resurslardan sonra ikinci yeri tutur [5].

Vikipediyanın əhəmiyyətindən danışarkən ilk növbədə aşağıdakıları qeyd etmək lazımdır:

1. Vikipediya müxtəlif dillərə malik olduğundan, məqalələrə hipermətnlər daxil edildiyindən, hər kəs virtual ensiklopediyanın təşkilində iştirak edə bilər. Hər bir məqalə digər dillərdən analoqa malik olduğundan beynəlxalq istinadlardan istifadə etməklə onlara əsaslanmaq mümkündür;
2. Vikipediyada məqalələr azad istifadəyə və düzəlişə malikdir;
3. Vikipediyada müəyyən edilmiş "neytral mövqe" qaydası, hadisələrin və fikirlərin plüralizmə uyğun, qərəzsiz işıqlandırılmasına nail olmaq imkanı yaradır;
4. Vikipediyaya daxil edilmiş informasiya tədricən dəyişmək tendensiyasına malikdir;
5. Xüsusiləşdirilmiş informasiyanı Vikipediyada çəkinmədən saxlamaq olar;
6. Mübahisəli məqalələr və münaqişə yaradacaq informasiyalar Vikipediyada çox azdır və müraciət olunduqda onların fəaliyyətini

dayandırmaq mümkündür. Vikipediyada neytral məqalələr daha davamlıdır.

Azərbaycan dilində yaranan Vikipediya 2004-cü ildə www.az.wikipedia.org ünvanı altında fəaliyyətə başlamışdır. Vikipediyanın 2007-ci ilin noyabr ayına olan məlumatına görə bu saytda 17671 məqalə vardır. Müqayisə üçün deyək ki, Vikipediyanın ingilis bölməsində 2095590, rus bölməsində 214960, türk bölməsində isə 92244 məqalə mövcuddur [5].

Milli Vikipediyanın inkişaf etdirilməsi, genişləndirilməsi, dolğun informasiya ilə təmin edilməsi hər bir azərbaycanlının vicdan borcudur. Nəzərə alsaq ki, Azərbaycan Ermənistanla müharibə şəraitindədir və ermənilər öz milli Vikipediyalarının səhifələrində yalan və böhtan xarakterli informasiyalar daxil edirlər, o halda biz ayıq-sayıq olub onlara tutarlı cavablar verməliyik. Azərbaycan tarixini saxtalaşdıran, tarixi abidələrimizi özününküləşdirən, mədəniyyətimizə, dilimizə, musiqimizə təcavüz edən ermənilərə qarşı virtual məkanda mübarizə aparmaq üçün biz Vikipediyada Azərbaycan haqqında

olan informasiyanı xarici dillərdə də dərc etməliyik. Azərbaycan dilindəki Vikipediyanı zənginləşdirməklə, yanaşı, rus, ingilis, fransız, alman və s. dillərdə fəaliyyət göstərən Vikipediyalara nəzarət etmək, ermənilərin və ermənipərəst qüvvələrin virtual ensiklopediyaya daxil etdiyi dezinformasiyaların qarşısını almaq məqsədilə oraya düzgün, obyektiv məqalələr əlavə etməliyik.

2006-cı il aprel ayının 19-da milli İnternet ünvanlarının qeydiyyatını tənzimləmək, onları beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədilə " Azərbaycan İnternet Qeydiyyat Qurumu" təsis olundu. Qurumun fəaliyyəti çərçivəsində elektron ünvanların əksəriyyəti "Az Domen" formatında fəaliyyət göstərəcək. Yeni ünvan yaratmaq istəyənlər bu quruma müraciət edib qeydiyyatdan keçirlər.

Hazırda Azərbaycan dilli milli İnternet saytlarının sayı və onların keyfiyyəti qənaətbəxş sayıla bilməz. Saytların (xüsusilə dövlət saytlarının) böyük əksəriyyətinin keyfiyyət səviyyəsi aşağı, resursları isə yox səviyyəsindədir [6].

## VI. Təkliflər və nəticə

Azərbaycanın dünya informasiya məkanına fəal inteqrasiya olunmasını, bu məkanda mədəniyyətimizin, elmimizin, dilimizin, tariximizin və s. özünə layiqli yer tutmasını təmin etmək üçün aşağıdakı işlərin həyata keçirilməsini məqsədəuyğun sayırıq:

- Azərbaycan dilli İnternet resursların ildə bir dəfə monitorinqi aparılmalıdır. Dərin elmi təhlil aparıldıqdan sonra, çatışmamazlıqlar, problemlər müəyyənləşdirilməli, onların aradan qaldırılması üçün tədbirlər planı işlənib hazırlanmalıdır;
- milli İnternet resursları İKT-nin yeni nailiyyətləri (xüsusilə İnternetlə bağlı) nəzərə alınmaqla yenidən qurulmalı, onların keyfiyyəti, informasiya yükü, dizaynı, çevikliyi yüksəldilməlidir;
- Azərbaycan saytları hər üç dili (Azərbaycan, rus və ingilis) dəstəkləməklə, terminoloji, izahlı

lüğətlərlə, tərcümə proqramları ilə zənginləşdirilməlidir. Azərbaycan dilini müstəqil öyrənmək istəyən hər bir şəxs üçün ana dilimizi tədris edən sayt yaradılmalıdır. Bu tədrisin proqramı dilçilər tərəfindən hazırlanmaqla ana dilimizi sadə, çox anlaşıqlı şəkildə qavramağa, öyrənməyə xidmət etməlidir.

- kütləvi informasiya vasitələrində, tədrisdə, çap olunan kitablarda, Azərbaycan dilli İnternet saytlarında İKT üzrə terminlərin işlədilməsində hökm sürən özbaşınalığa son qoymaq məqsədilə bu sahədə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti yanında Terminologiya Komissiyası tərəfindən təsdiq olunmuş vahid, böyük həcmli terminoloji lüğət hazırlanmalı, çap olunmalı və həm də İnternetdə yerləşdirilməlidir (xüsusu saytda). Elmi terminologiyanın yaradılması üçün Azərbaycan

dili hər cür imkana malikdir. Hal-hazırda AMEA İnformasiya Texnologiyaları İnstitutunda terminoloji lüğətin hazırlanması üzərində işlər aparılır.

## Ədəbiyyat


1. Əliquliyev R.M. Dünya Azərbaycanlıları və virtual məkan. "Dirçəliş-XXI-ƏSR" jurnalı, №133-134/2009, səh. 330-339.

2. Kazımov T.H., Mahmudova Ş.C. İnformasiya cəmiyyətində Azərbaycan dilinin problemləri. "Biznes dunyası" analitik iqtisadi jurnal, №5-6 2007. Bakı, Azərbaycan, №10, səh. 26-28.

3. Кязимов Т. Г., Асланов Дж. Ю. Азербайджанская виртуальная клавиатура «Simurq». Телекоммуникация и информатизация образования. № 6 (37) 2006, стр. 108-111.

4. Əliquliyev R.M., Qurbanova Ə.M. Virtual məkanda Azərbaycan dilinin problemləri və həlli yolları. " Terminologiya məsələləri" jurnalı, BAKI-ELM-2009, səh.11-17.

5. www.az.wikipedia.org, www.wikipedia.org

6. Əliquliyev R.M., Ələkbərova İ.Y., Qasımova R.T. İnternetdə kollektiv bilik və viki texnologiyası. "İT maqazin" jurnalı, 02 (53)-2008, səh. 5-5.

Kazimov T.H., Azerbaijan language and virtual space. Express information Series of Information Society.
Baku: "Information Technologies" Publishing House, 2009, 42pp.

Some problems and aspects of development of application of the Azerbaijan language in virtual space are investigated in the express information. Existing problems and the difficulties are analyzed, disturbing to the Azerbaijan language to take a worthy place in virtual space, and recommendations for the their elimination are offered.

Кязимов Т.Г., Азербайджанский язык и виртуальное пространство. Экспресс-информация. Серия информационное общество.
Баку: Изд. «Информационные технологии», 2009 г. 42 с.

В экспресс-информации анализируются и исследуются некоторые проблемы и аспекты развития использования азербайджанского языка в виртуальном пространстве. Проанализированы существующие проблемы и трудности, мешающие азербайджанскому языку занять достойное место в виртуальном пространстве, и предложены рекомендации с целью их устранения.




Tofiq
Həsənağa oğlu
Kazımov

AMEA İnformasiya Texnologiyalaı
İnstitutunun şöbə müdiri
Fizika-riyaziyyat elmləri namizədi,
dosent

depart9@iit.ab.az
tofig@mail.ru

**Texniki redaktor:** Anar Səmidov

**Korrektor:** Konul Rzayeva

**Kompyuter dizaynı:** Aybəniz Kərimova

**Kompyuter yığımı:** Konul Rzayeva

Çapa imzalanmışdır 04.08.2009. Çap vərəqi 60x84,
Sifariş № 17 , sayı 100 ədəd